# Cəlal kişinin sərgüzəştləri

*Təxminən 20-23 yaşım olardı. Bir gün Beyləqandan Ağdama - evimizə qayıdırdım. Piyada tək-tənha yol gedirdim. Gah yeriyir, gah yüyürürdüm ki, gecə düşənə kimi Ağdama çata bilim.*

*Artıq qaş qaralırdı. Hərami deyilən düzənliyə çatmışdım. Diqqətlə baxıb lap uzaqda bir qaraltı sezdim. Bir az irəliləyərək qaraltının yüklü bir araba olduğunu gördüm. Düşündüm ki, əgər arabaya çata bilsəm yol boyu əziyyət çəkmərəm. Çox çətinliklə də olsa özümü arabaya çatdıra bildim.*

*Araba ağzına qədər un, taxıl kisələri ilə dolu idi. Arabanın boynunda 38-40 yaşlarında sağlam bir qadın əyləşmişdi. Gəlişimi hiss eləsə də oxumağına ara vermədən atı qamçılayır, yol gedirdi. Mən güclə nəfəsimi dərib ondan soruşdum:*

*- Bacı, yolun hayanadır?*

*Qadın mənə baxmadan cavab verdi:*

*- Ağdama gedirəm.*

*- Yolumuz birdir, olarmı mən də arabaya minim?*

*- Nə deyirəm.*

*Mən sevincək arabaya qalxdım. O yenə də oxumağa başladı.*

*Artıq qaranlıq düşmüşdü. Mən arxası üstə kisələrin üstünə uzanıb göydəki gur yanan, sayrışan ulduzları seyr eləyir, ürəyimdə arabaya çata bildiyimə görə özümə "əhsən" deyirdim. Sərin meh üzümə vurduqca xumarlanır, araba məni nənni kimi atıb-tutduqca yuxulamaq istəyirdim. Qadın oxumağına ara verdiyindən araba çarxlarının yeknəsəq səsindən başqa heç nə eşidilmirdi.*

*Qadının gur səsi eşidildi:*

*- Yolda qarşımı kəssələr, məni müdafiə eləməyə gücün çatarmı?*

*Mən başımı azca qaldırıb ötkəm-ötkəm cavab verdim:*

*- Bizim qarşımızı kəsə bilən hələ anasından olmayıb! Kişi döyülük?*

*Qadın susub daha heç nə soruşmadı.*

*Araba gedir, mən isə şirin-şirin mürgüləyir, canımın yorğunluğunu çıxarırdım.*

*Birdən qadının həyəcanlı səsi eşidildi:*

*- Vaxsey, quldurlar! Qoymayın, köməyə gəlin! Ay haray!!!*

*Araba dayanmışdı. Mən cəld arabadan atılıb atla arabanın arasında üzü üstə yerə uzanıb gizləndim. Öz-özümə deyindim: "Cəhənnəm olsun onun taxıl kisələri! Təki mənə dəyməsinlər".*

*Ürəyimin döyüntüsü qulaqlarımda da gurlayırdı. Bir qədər keçdi. İndicə atlıların arabanı necə soyacaqlarının şahidi olacağımı gözlədiyim bir vaxtda qadın bərkdən qəhqəhə çəkdi. Məsələnin nə yerdə olduğunu yalnız indi anladım...*

*- Hə, qoçaq, utanma çıx, bizi soyub eləyən yoxdur, mən səni sınayırdım!*

*Xəcalətimdən daha arabaya minmədim.*

*İndi mən arabanın yanınca piyada gedirdim. Qadın isə hələ də oxuyur, atı qamçılayırdı...*

*Fazilə Qaraxanqızı*